# Doriya, dorin bala

hekayə



Vahid MƏHƏRRƏMOV

Hüseyn özünün bəstələdiyi mahnını oxuyanda hamı əlini iş-gücdən çəkir, onu dinləyib “sağ ol” deyirdi. Onun yanıqlı, kövrək səsi aram-aram qəlblərə hopurdu. Mahnı elə də uzun çəkmirdi. Əvvəlcə zildə oxuyurdu, sonra yavaş-yavaş tempi aşağı salırdı. Hüseyn yarım bəndlik sözləri təkrar-təkrar, ahəstə-ahəstə oxuyub, arada zəngulə vura-vura ifasını sona çatdırırdı. Mahnının sözlərini heç kim anlamırdı. Bəlkə heç özü də başa düşmürdü. Eləcə, kövrək və həzin bir səslə oxuyurdu:

***Doriya, dorin bala,***
***Doriya, dorin bala...***

Bilinmirdi ki, Hüseyn bu sözlərlə nə demək istəyir. Özü isə fərqinə varmadan əlini qulağının dibinə qoyub bir az uzunsov çənəsini asta-asta tərpədirdi. Onun məlahətli səsi nazik dodaqlarının arasından aram-aram ətrafa süzülürdü. Külək isə Hüseynin mahnısını qovub uzaqlara aparırdı.

Hüseyn nə müğənni idi, nə bəstəkar, nə də ki, bunlardan biri olmaq üreyindən keçirdi. Hamı kimi onun da başı pambıq yığmağa, ot biçməyə və başqa təsərrüfat işlərinə qarışmışdı. Hüseynin yaşadığı kənddə musiqiçi kimi yetişmək üçün nə bir təhsil ocağı, nə də bir tədris mərkəzi var idi. Yalnız orta məktəbdə nəğmə dərsi keçirdilər ki, o da maraqsız olduğundan heç kim sinfə girmirdi. Ona görə də biz tərəflərdə musiqiçi, müğənni tapmaq bir az müşkül məsələydi. Toy, nişan, nə bilim, nə isə bir xırda məclis keçirəndə musiqiçilərin hərəsini bir yerdən tapıb toplayırdıq.

Musiqi təhsili olmasa da, Hüseynin yanıqlı səsi var idi. Amma toyda-filanda mikrafon götürüb oxuyan deyildi. Çoxları kimi mən də onun bu bircə mahnısının vurğunu idim. Hüseynin bundan başqa bir şey oxuduğunun şahidi olmamışdım. Bəlkə də nə isə başqa bir mahnı ifa etsəydi daha da yaxşı olardı. Amma o elə bircə mahnısı ilə hamını heyran eləmiş, camaat arasında “şöhrət” qazanmışdı. Onun oxuduğuna bəlkə də heç mahnı da demək olmazdı. Çünki sözsüz-filansız bir şey idi. Hamımız kimi o da hərdən həmin mahnını zümzümə edib ruhunu sakitləşdirir, ovqatına rəng qatırdı. Onun bu mahnısından həm özü, həm də biz zövq alırdıq. Heyranlıqla qulaq asdığımızı görən Hüseyn bir az da həvəslə oxuyurdu.

Onun yolu pambıq sahəmizin yaxınlığından keçirdi. Ona görə də “Doriya, dorin bala”nı tez-tez eşidirdik. Bir də görürdük ki, budur e, Hüseyn eşşəyin belində oturub ayaqlarını da yellədə-yellədə kövşən yolundakı hündür qovaq ağaclarının kölgəsi ilə gəlir. Tozlu-torpaqlı yoldan pambıq sahəsinin arasına dönüb camaatı görən kimi ilhama gəlib sevimli mahnısını oxuyurdu. Ta sahənin sonuna çatana qədər “Doriya, dorin bala” dilindən düşmürdü. Onun ürəkdən gələn yanıqlı səsi hamını sehirləyirdi. Üzü yuxarı getdikcə bizdən uzaqlaşır, səsi zəifləyib eşidilməz olur, hava axınının ara-bərəsində itirdi.

Gün ərzində Hüseynin mahnısını bir neçə dəfə eşidirdim. Hər dəfə ondan bir cür zövq alırdım. Elə adamlar var idi ki, bütün fikirlərini iş-gücə ayırırdılar. Mahnıya qulaq asmırdılar, elə bil onların qulaqları tutulmuşdu, heç nə eşitmirdilər. Beləleri üçün musiqi, əyləncə o qədər də maraqlı deyildi. Alınlarından şıppır-şıppır tər tökülsə də, bircə anlıq əllərini saxlayıb heç olmasa Hüseynin o gözəl mahnısını belə dinləməyə ərinirdilər. Elə hey işi qabağa qovurdular. Belə zövqsüz adamlara yazığım gəlirdi. Çünki bu iş zəhrimara qalmış qurtaran deyildi. Səhərdən axşamacan nə qədər istəsən iş var idi, sonu görünmürdü. Mahnı isə dediyim kimi, bir neçə dəqiqə çəkirdi. Bu zövqsüz adamlar deyəsən, dünyaya yalnız işləmək üçün gəlmişdilər.

Onun mahnısının ritmi də çox oynaq idi. Hüseyn də sağ olsun, onu xoş bir ahənglə ifa edirdi. Bəlkə də o heç bilmirdi ki, mən onun mahnısına belə maraqla qulaq asıram. Hər dəfə Hüseyni dinləyəndən sonra fikirləşirdim ki, əgər kəndimizdə heç olmasa musiqi təhsili olan bircə nəfər olsaydı, onun “Doriya, dorin bala”sının ardını ritminə uyğun davam etdirər, uyarlı sözlər tapıb tamamlayardı və sonda çox gözəl bir mahnı yaranardı. Hüseyn də onu yanıqlı səsi, xoş avazı ilə oxuyar, biz də ondan yaxşıca zövq alardıq. Amma o günlərdə mahnı yada düşmürdü, hamı yalnız pambıq planını artıqlaması ilə doldurub keçici qırmızı bayraqlar almağa can atırdı. Heç kəsin yadına şeir yazmaq, musiqi bəstələmək, mahnı oxumaq düşmürdü. Hüseyn isə plana-filana baxmadan, dünyanın işlərini vecinə almadan həzin-həzin “Doriya, dorin bala”sını oxuyurdu. Elə yaxşı da eliyirdi. Onun səsini eşitdikcə ruhumuz sakitləşir, yorğunluğumuz keçir, nəfəsimiz təzələnirdi.

Tərs kimi mənim də elə bir qabiliyyətim yox idi ki, Hüseynə kömək edib nə isə bir mahnı düzüb-qoşam, onun neçə vaxtdan bəri başladığı “Doriya, dorin bala”sını tamamlayam. Amma, musiqiyə, poeziyaya həvəsim var idi. Əgər marağım olmasaydı, mən də başqaları kimi ona qulaq asmaz, başımı aşağı salıb pambıq kollarının dibində qurdalanardım. O vaxtlar ən böyük arzum gitara çalmağı öyrənmək idi. Böyüyəndə də bu sənətin qulpundan yapışmaq istəyirdim. Gitaranın sirlərini yaxşı öyrənəndən sonra isə toylara gedib çoxlu pul qazanardım. Məqsədimə çatmaq üçün uzun və çox da enli olmayan taxtanın üstünə bir-birinə paralel kiçik ölçülü mismarlar vurub, iki-üç simi yanaşı dartıb möhkəmcə bağlayırdım. Simlərin səsi pis çıxmırdı. Amma di gəl ki, nə qədər çalışsam da, mahnını döndərə bilmirdim. Eləcə “gitaran”ı sinəmə basıb boş-boşuna eyni avazla dınqıldadırdım. Simlərin səsini bir yerə yığıb nizamla idarə edə bilmirdim. “Mizrab”ı vuran kimi səs əlimdən “qaçıb” ətrafa yayılırdı. Hərdən də simlər zərbələrə dözməyib qırılırdı. Təzədən onları yerinə bağlayınca barmaqlarım kəsik-kəsik olurdu. Bu qədər əziyyətin qabağında heç nə alınmırdı. “Gitara” düzəltməkdən, onda nə isə ifa etməkdən əlimi birdəfəlik üzüb, yenə də Hüseynin mahnısına qulaq asırdım.

Sən demə, heç də hamı mənim kimi Hüseynin mahnısının vurğunu deyilmiş. Günlərin birində səhər-səhər Hüseyn yenə də kövşən yolunda görsəndi. Arxın qırağına çatıb pambıq sahəsinə tərəf dönəndən sonra yanıqlı səsi ilə mahnısına güc verdi. Hüseyn gözəl ifasına elə yenicə başlamışdı ki, qonşu sahədə işləyən Kamil dayı onun qabağına yeriyib mindiyi eşşəyin boynundan tutub saxladı. Hüseyn susub mahnısına ara verdi. Məlahətli və yanıqlı səs yarıda qırıldı.

Kamil dayı üzünü ona tutub dedi:

- Ə-əə bala, Hüseyn. Nədi, səhər-səhər nə çığır-bağır salmısan? Day qışqıra-qışqıra zəhləmizi tökmüsən. Belə gedirsən “Doriya, dorin bala”, elə gedirsən “Doriya, doriya bala”. Nədi, bala, nə xəbərdi? Day baş-beynimizi apardın e-ee, sən. Yolu sakitcə keçif gedə bilmirsən, gərək hay-küy salasan?

Yazıq Hüseyn eşitdiyi bu sözlərdən çaşıb qalmışdı. Dinib danışmır, sakitcə dayanıb mat-məəttəl Kamil dayının tük basmış qəzəbli sifətinə, balaca göy gözlərinə baxırdı.

Bu vaxt İslam kişi də ayağını çəkəçəkə özünü onlara çatdırdı. Əvvəl fikirləşdim ki, bəlkə o da Hüseynə eyni sözləri deyəcək. Onu müdafiə etmək üçün mən də bir az qabağa yeridim. Yaxınlaşanda gördüm ki, İslam kişi Hüseyni yox, Kamil dayını danlayır:

- Ə-əə nədi, Kamil, nə istəyirsən bu uşaxdan? Oxuyur, oxusun də, ondan sənə nə var? Nədir, bəlkə Hüseyn ağzın açanda sənnən icazə almalıdı? Ə-əə, niyə uşağın qəlbini qırırsan? İstəmirsən heç eşitmə, qulağına pambıq tıxa. Bu da sənə qolxozun yoncalığı deyil ha, heç kəsə bir bağ ot biçməyə imkan verməyəsən. Sən nə bilirsən musiqi nədi, mahnı nədi, oxumaq nədi? Səninki ona-buna pislik eliyif, bir də qul kimi səhərdən axşamacan işləməhdi. Əl çək uşaxdan, qoy üreyi istədiyi kimi oxusun.

Kamil dayı dodağının altında bir az mızıldansa da, xeyri olmadı. Səs-küyə məndən başqa da gələnlər oldu. Hüseynə dediyi acı sözlərə görə hamı onu məzəmmət elədi. Kamil dayı isə haqlı sözləri eşitmək istəməyib deyinə-deyinə çıxıb getdi. Hüseyn də onu müdafiə edən adamlara güvənib yenə də “Doriya, dorin bala”sını oxuya-oxuya yoluna davam elədi.

Şivərək bir oğlan olan Hüseynin yaşı elə də çox deyildi. Hələ doqquzuncu sinifdə oxuyurdu. Boyu uzun olsa da, bədəncə arıq idi. Nazik dodaqları və dik burnu ilk baxışda onu bir az kobud göstərirdi. Əslində isə elə deyildi. O, çox üzüyola, sakit bir uşaq idi. Saçı da bizimkilərə oxşamırdı, tükü elə bil bir az cod idi. Heç saçını daramaq da lazım deyildi. Eləcə çim, yuyun çıx kəndin aralığına. Hüseynin ürəyi də səsi kimi tərtəmiz idi. Nə vaxt çağırsan adama kömək edər, xeyrə-şərə yarayardı. Həm yaxşı səsinə, həm də belə üzüyola olduğuna görə hamı onun xətrini çox istəyirdi.

Günümüz-güzəranımız “Doriya, dorin bala”sız ötüşmürdü. Onun səsini eşidib üzünü görməsəydik əlimiz işə yatmırdı. Sağ olsun, Hüseyn də bizi çox intizarda saxlamırdı. Bir də görürdün, budur ha, eşşəyin belində asta-asta gəlir. Arx yuxarı dönən kimi başlayırdı sevimli mahnısını ifa eləməyə. “Doriya, dorin bala” bu yerlərin torpağına, suyuna, daşına, ot-əncərinə də hopmuşdu. Onun səsi, avazı ürəklərimizi yandırır, qəlbimizi kövrəldirdi. “Doriya, dorin bala” bəlkə də indiyə qədər qulaq asdığım mahnıların mininə dəyərdi. Hüseyn onu yana-yana, yaşaya-yaşaya oxuyurdu. Axı, bu onun öz bəstəsi, öz mahnısı idi. Onun ritmi də, avazı da, sözləri də öz dəsti-xəttiydi. Nə ona kimsə kömək etmiş, nə də o kimsədən kömək istəmişdi. Hüseynin səsində qəlbləri dağlayan qəribə bir yanğı, ürəkləri yandıran bir ahnalə, gücələ duyulan kədər hiss olunurdu. Ona görə də sözləri başa düşülməyən yarım bənddən ibarət olan bu mahnı ahənruba kimi adamı özünə çəkirdi.

Neçə illərdən sonra bu sətirləri yazanda Hüseynin görkəmi, işıqlı çöhrəsi gəlib gözlərim önündə dayanır, onun kövrək, yanıqlı səsi qulaqlarımı döyəcləyir. Budur, o yenə də kövşən yolundan arxa tərəf dönüb bir az qabağa gələndən sonra “Doriya, dorin bala”sını oxuyur. Dəfələrlə fikir verməmişdim, Hüseyn bu mahnını burdan başqa heç yerdə dilinə gətirmirdi. Onu yalnız kövşən yolundan arxa tərəf dönəndə zümzümə edirdi. Bu gün fikrimə hakim olan bu düşüncələr, o vaxtlar ağlıma gəlməzdi. İndi fikirləşirəm ki, yəqin Hüseynin pambıq sahəsinin bu tərəfində işləyən qızlardan hansındasa gözü varmış. Gizlin-gizlin onu sevirmiş, oğrun-oğrun ona baxırmış. Bəlkə də elə bu “Doriya, dorin bala” onun sevgi mahnısı, könül nəğməsiymiş, bunu öz sevgilisi, öz məhəbbəti üçün bəstələyib həzin-həzin oxuyurmuş? Ürəyindəki eşqi, sevdanı bu mahnı ilə dilə gətirib sevdiyi qıza heç kəsin başa düşməədiyi sözlərlə anlatmaq istəyirmiş. Ola bilsin ki, sevgilisi ona müsbət cavab verməmişdi, elə ona görə də mahnısını burdan keçəndə yanıqlı səslə oxuyub kədərini, həsrətini təkrar-təkrar sevdiyi qıza çatdırırmış. Yəqin elə “Doriya, dorin bala” sevgi nəğməsi olduğuna görə idi ki, məni belə tez ovsunlayırdı. Axı, mən də o gözəl günlərdə sevir, Simarənin məhəbbəti ilə yaşayırdım. Ürəyim sevgi, məhəbbət bulağından su içəiçə döyünürdü.

Beləcə, Hüseyn bəstələdiyi bu sevgi mahnısını, yanğılı nəğməsini oxuyur, həftələr, aylar yavaş-yavaş ömrümüzdən günləri qoparıb səssiz-səmirsiz arxasına baxmadan gedirdi. O qayğısız, xoşbəxt illərdə düşünürdük ki, bu axarlı-baxarlı günlərin ahəngini, rəngini heç kim pozub dəyişə bilməz. Elə beləcə, arxayın-arxayın, sevə-sevə ömrümüzü bu torpaqların üstündə sakitcə yaşayacağıq. Hardan biləydik ki, bizi qarşıda dəhşətli faciələr gözləyir! Hardan biləydik ki, bir gün gələcək, biz həm bu doğma yerlərə, həm də Hüseynin sevgi mahnısına həsrət qalacağıq! Hardan biləydik ki...

Həyatımızın sakitliyini, ömrümüzün axarını, ahəngini ermənilərin atdığı toptüfəng səsləri pozdu. Bir vaxtlar təbəssümdən don geyinmiş çöhrələrə qəm ələndi, kədər çökdü. Gülən, sevinən gözlərdə yaş giləndi. Eşidib gördüklərindən hamı heyrət içində donub qaldı. Ömrümüzün sakit, firavan günlərinin birində erməni işğalçıları torpaqlarımıza hücum etdi. Güllə səsləri kənd-kəsəyi başına götürdü. Dağlar, dərələr top gurultusuna, tank nəriltisinə, avtomat şaqqıltısına neçə illərin dərin yuxusundan diksinib ayıldı. Düşmən evləri yandırıb hər yeri viran qoydu, otlaqlara, bağ-bostanlara od vurdu. El-oba doğma ocağından, dədə-baba yurdundan didərgin düşdü. Torpağını, evini itirən camaat gözüyaşlı qaldı, el-obasından baş götürüb qaçmalı oldu. Qorxub özünü itirmiş adamlar yuvasından perik düşmüş quşlar kimi hərəsi bir tərəfə üz tutdu. Doğmalar, əzizlər bir-birindən ayrı düşdü. Ürəklər açılmadı, könüllər sevinmədi, nəmli gözlərin yaşı qurumadı. Doğma ocaqlarımıza, buz bulaqlarımıza, meyvəli bağlarımıza, kəklikli, turaclı dağ-dərələrimizə, yövşanlı çöllərimizə həsrət qaldıq. İndi hamı dədə-baba ocaqlarından xeyli uzaqlarda ötən günlərin nisgilini, xiffətini çəkə-çəkə yaşayır.

Yurd həsrəti ilə yanan ürəklərdə Hüseynin nəğməsinin də qubarı var. Çoxdandır onun da səsini eşitmirik, “Doriya, dorin bala”sına qulaq asmırıq. Neçə vaxtdır ürəyimiz açılmır, könlümüzə sevinc qonmur, gözlərimiz gülmür, qəlbimizin sızıltısı kəsmir, yaralarımız qaysaq bağlamır. Kənddən qaçqın düşəndən sonra heç bilmədik ki, Hüseyn hara getdi, hansı tərəfə üz tutdu, kimə pənah apardı? Bəlkə heç Hüseyn artıq bu dünyada yoxdur? Bəlkə köçünü çoxdan çəkib gedib, o gözəl mahnısını da özü ilə aparıb? Əgər yaşayırsa, görəsən, indi yenə də sevimli mahnısını oxuyurmu? Sevgisinə, sevgilisinə qovuşa bilibmi? Yoxsa Hüseyn “Doriya, dorin bala”sını da doğma ocaqlarda qoyub gəlib? Bəlkə indi təzə mahnılar qoşub, yaşadığı qaçqınlıq həyatına acı-acı nəğmələr oxuyur? Nə bilmək olar, bəlkə Hüseyn qaçqınlıqdan sonra ruhdan düşüb dilinə mahnı-zad yatmır, ürəyi musiqiyə köklənmir, dodaqları söz tutmur, səs telləri həsrətdən titrəyir, o da hamı kimi torpaq, yurd nisgili çəkir, qəm odunda qovrulur? Heç oxumaq yadına da düşmür.

İndi yəqin doğma ocaqlar da, kövşən yolları da, arxın qırağı da, axan sular da, torpaq da, daş da, uçan quşlar da Hüseynin mahnısı üçün darıxır. Onun “Doriya, dorin bala”sının xiffətini çəkir. Elə bizlər də həm doğma yerlər üçün, həm də Hüseynin nəğməsini eşitmək üçün kövrəlib dolmuşuq. Tez-tez ötənləri xatırlayıb acı göz yaşları axıdırıq. Harada oluramsa Hüseynin sevgi nəğməsi, yanıqlı səsi qulaqlarımdan getmir. Hamını kövrəldən bu mahnı həmişəlik yaddaşımın “qızıl fond”una hopub.

...Yenidən doğma ocaqlarımıza dönmüşük, həyatımız əvvəlki axarına düşüb. Yenə də hamı iş başındadı. Budur, Hüseyn eşşəyin belində kövşən yolunda görsənir. Arxı keçib üzü yuxarı dönən kimi yanıqlı səslə “Doriya, dorin bala”sını oxuyur. Bir anlıq əlimi işdən çəkib onun həzin nəğməsinə qulaq kəsilirəm.

Xəyal imiş...